**Respublika.-**2024.-7 avqust.-№166.-S.5

# "Yaşıl dünya" sağlam gələcəyin başlıca prioritetidir

## COP29

**Əlisəfa Həsənov**

**Çağdaş dünyamızı müharibə və münaqişələrlə yanaşı, iqlim dəyişmələri, qlobal istiləşmə, ətraf mühit, təbiətdə baş verən kataklizmlər narahat edir. Bu bəşəri problemin həlli məqsədilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına 190-dan çox dövlət qoşulub. 2024-cü ilin respublikamızda "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması, Azərbaycanın COP29-a ev sahibliyi etməsi barədə mühüm qərarın qəbul edilməsi ölkəmizin beynəlxalq təşəbbüslərə göstərdiyi güclü dəstəyin, etibarlı tərəfdaşlığın, böyük etimad və inamın parlaq nümunəsidir.**

Noyabr ayında Bakı şəhərində BMT səviyyəsində belə möhtəşəm, mötəbər tədbirin keçirilməsi heç də təsadüfi deyil. İqlim dəyişmələrinə qarşı mübarizə, "yaşıl enerji"yə keçidlə əlaqədar ölkəmizdə irimiqyaslı layihələr həyata keçirilir, müstəqil Azərbaycan ümumbəşəri problemin həllinə layiqli töhfələr verir.

Ölkəmiz neft-qazla yanaşı, həm də bərpaolunan enerjinin təhcizatçısına çevrilir, bu enerjinin Avropaya ötürülməsi istiqamətində uğurlu addımlar atılır. 2027-ci ilədək "yaşıl enerji" güclərinin 2 QVt-a çatdırılacağı, enerji qoyuluşunda bərpaolunan enerji mənbələrinin payının 33 faizə çatacağı, 2030-cu ilədək istixana qazlarının miqdarının 35 faiz azaldılacağı planlaşdırılır.

Müsahibimiz Aqil Sucayev təcrübəli ekoloqdur. Zəngin flora və faunası ilə tanınan, relikt növlərə və maraqlı landşafta malik Hirkan Milli Parkının direktoru işləyib. Hazırda Azərbaycan Prezidenti İlham Əliyevin 26 sentyabr 2018-ci il tarixli Sərəncamı ilə Qızılağac Dövlət Təbiət Qoruğunun bazasında yaradılmış Qızılağac Milli Parkın rəhbəri Aqil Sucayev COP29-un ölkəmizdə keçirilməsinin əhəmiyyətindən, verəcəyi faydalardan söhbət açaraq deyir:

-Azərbaycanın ən böyük tarixi tədbirə - COP29-a ev sahibliyi etməsi hər birimizi sevindirir və qürurlandırır. Ölkəmizdə 70-80 min nəfər xarici qonağın bu tədbirə qatılacağı gözlənilir. Konfransda qlobal iqlim dəyişmələrinin, getdikcə artan istiləşmənin yaratdığı fəsadların qarşısının alınması, ətraf mühitin qorunması və digər vacib məsələlər geniş müzakirə ediləcək, beynəlxalq səviyyəli mühüm qərarlar qəbul olunacaqdır. Həmçinin Ermənistanın 30 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda törətdiyi ekoloji terror, təbiətimizə vurduğu ağır zərbələrin aradan qaldırılması üçün gördüyümüz işlər haqqında qonaqlara ətraflı məlumatlar veriləcəkdir.

Zümrüd donlu meşələri təbiətin "ağ ciyəri" adlandırırlar. Namərd düşmən 30 il ərzində meşələrimizə, ətraf mühitə qarşı sözün əsl mənasında ekoloji terror törədib. Dövlətimizin başçısı bu barədə deyib: "Mənfur, vəhşi düşmən bizim meşələrimizi 30 il ərzində qırıb, talayıb və son müddət ərzində yandırıb. Buna baxmayaraq, meşə sahələrimizin böyük hissəsi toxunulmaz qalıb, çünki düşmən o meşələrə dırmaşa bilməyib, o, ucqar dağ massivlərində yerləşir. Əlbəttə, dağıdılmış və məhv edilmiş infrastrukturun, o cümlədən kəsilmiş ağacların bərpası da diqqət mərkəzində olacaqdır".

Ölkə Prezidentinin rəhbərliyi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yaşıllaşdırma tədbirləri, çoxsaylı ağacəkmə aksiyaları keçirilir.

COP29 qlobal məsələlərin müzakirə ediləcəyi, bu istiqamətdə mühüm qərarların qəbul olunacağı beynəlxalq platformadır. Konfransın qərarları təkcə ölkəmiz üçün deyil, ümumilkdə dünyamız üçün çox faydalı olacaq, bundan bütün bəşəriyyət yararlanacaq.